RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 81 (8960) ÇƏRŞƏNBƏ, 20 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycanla Kuba beynəlxalq miqyasda bir-birlərini tam dəstəkləyir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Kuba Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyonun etimadnaməsini qəbul edib.

2

## Misir etibarlı tərəfdaş, yaxın dost ölkədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hişam Mohamed Nağı Abdel Həmidin etimadnaməsini qəbul edib.

2

## BƏƏ Azərbaycana investisiya layihələrini daha da artıracaq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Əl Bluşinin etimadnaməsini qəbul edib.

2



# İLHAM ƏLİYEV Qafqazın inkişaf strategiyasını müəyyənləşdirir

6

## İlham ƏLİYEV: "Brüssel razılaşması başlanğıc nöqtəsi oldu"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

2

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma




Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 19-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

5

## Azərbaycan və Gürcüstan münasibətlərinin inkişafında qanunverici orqanların mühüm rolu var



Milli Məclisin sədri Sahibə Qafarova aprelin 19-da Gürcüstana rəsmi səfəri çərçivəsində Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb.

3



## Dünya azərbaycanlıları Şuşada zəfər tonqalı qalayacaq

**Həmvətənlərimiz V qurultayı mədəniyyət paytaxtımızda keçirəcəklər**

8




## Prezident İkinci Dünya müharibəsi iştirakçılarına birdəfəlik maliyyə yardımı ayırdı

2

## Azərbaycan, Gürcüstan və Türkiyə parlament təmsilçiləri Şuşada görüşəcəklər

4

## Əmək pensiyaları sahəsində sosial ədalət və sosial müdafiə tədbirləri gücləndirilir

4




## ABŞ ATƏT-in Minsk qrupunda iştirakını dayandırdı

**Rusiyadan sonra rəsmi Vaşinqtonun da bu addımı atması Qarabağ münaqişəsinin tam həll edildiyinin növbəti beynəlxalq etirafı oldu**

6

## Sürücü məsuliyyətsizliyi, yoxsa piyada laqeydliyi

7

## "Nə Le Pen, nə də Makron!"

Fransada prezidentliyə hər iki namizədə qarşı etiraz aksiyalarını polis kütləvi zorakılıqla yatırdır

7

## Ermənistanda müxalifət vətəndaş itaətsizliyinə başlayır

7

# Azərbaycanla Kuba beynəlxalq miqyasda bir-birlərini tam dəstəkləyir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Kuba Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyonun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlət başçısı ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayaraq Kuba Prezidentinin Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana səfərini və onunla görüşünü məmnunluqla xatırladı, görüş zamanı əlaqələrimizin geniş gündəliyi ilə bağlı məhsuldar danışıqların aparıldığını bildirdi.



Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanla Kubanın beynəlxalq təşkilatlarda, o cümlədən BMT və Qoşulmama Hərəkatında əməkdaşlığı ölkələrimizin bir-birini həmişə dəstəkləməsinin yaxşı nümunəsidir.

Dövlət başçısı iqtisadi, mədəni, tibb, idman və digər sahələrdə ikitərəfli münasibətlərimizin inkişafı üçün yaxşı perspektivlərin olduğunu vurğuladı və ənənəvi sahələrdən başqa, yeni sahələrin, investisiya imkanlarının müəyyənləşdirilməsinin də önəmini qeyd etdi. Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Karlos Enrike Valdes de la Konsepsyon ilk növbədə Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudesin salamlarını dövlətimizin başçısına çatdırdı. Səfir qeyd etdi ki, Kuba Prezidenti dövlətimizin başçısı ilə Bakıda keçirdiyi görüşü və Azərbaycan Prezidentinin sədrliyi ilə Qoşulmama Hərəkatının Bakı sammitini məmnunluqla xatırlayır.

Dövlət başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kuba Prezidentinə çatdırmağı xahiş etdi.

Səfir ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli siyasi əlaqələrə əsaslanaraq iqtisadi, turizm və digər sahələrdə əməkdaşlığın genişlənməsi istiqamətində səylərini əsirgəməyəcəyini dedi.

# Misir etibarlı tərəfdaş, yaxın dost ölkədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hişam Mohamed Nağı Abdel Həmidin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlət başçısı Azərbaycanla Misir arasında siyasi və mədəni sahələrdə sıx əlaqələrin mövcud olduğunu vurğulayaraq beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin qarşılıqlı dəstəyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçilməsi və sədrlik müddətinin uzadılması ilə bağlı Misirin dəstəyini yüksək qiymətləndirdi. Dövlət başçısı İslam Əməkdaşlıq Təşkilatında fəal əməkdaşlığımızı qeyd etdi və ölkəmizin ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğalı zamanı Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamələrə verdiyi davamlı dəstəyə görə də Misirə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının nazirlər səviyyəsində görüşündə Azərbaycanın mədəni irsi və ərazi bütövlüyünün bərpası ilə bağlı qətnamələrin qəbul olunmasında təşkilatın güclü dəstəyini xüsusi olaraq vurğuladı. Dövlət başçısı Azərbaycanın da öz növbəsində Misiri beynəlxalq arenada dəstəklədiyini bildirdi. İqtisadi əlaqələrə toxunan Prezident İlham Əliyev bu sahədə əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı ticarətin həcminin artırılmasının zəruriliyini qeyd etdi. Dövlət başçısı vurğuladı ki, biznes dairələri arasında qarşılıqlı səfərlərin təşkili bu işə öz töhfəsini verə bilər.

Prezident İlham Əliyev dedi ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-yenidənqurma işlərində Misir şirkətlərinin iştirakından məmnun olar və bu, əməkdaşlığımızın yaxşı nümunəsi ola bilər. Dövlət başçısı qeyd etdi ki, işğaldan azad olunmuş ərazilərdə böyük həcmdə görüləsi işlər var və ermənilər tərəfindən 10 min kvadratkilometrdən çox sahəsi olan dağıdılmış ərazilərdə hazırda yenidənqurma və bərpa işləri aparılır. Prezident İlham Əliyev eyni zamanda digər sahələrdə də əlaqələrimizin inkişafı üçün yaxşı perspektivlərin olduğunu bildirdi. Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ölkəsinin əlaqələrimizin inkişaf etdirilməsi istiqamətində fəaliyyətdə maraqlı olduğunu vurğuladı.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafında hökumətlərarası birgə komissiyanın bu ilin fevralında keçirilmiş iclasının əhəmiyyəti vurğulandı.

# BƏƏ Azərbaycana investisiya layihələrini daha da artıracaq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Əl Bluşinin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Məhəmməd Əl Bluşi etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlət başçısı ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə dinamik şəkildə uğurla inkişaf etdiyini bildirdi. Abu-Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Məhəmməd bin Zayed Əl-Nəhyanla telefon söhbətini xatırladan Prezident İlham Əliyev həmin söhbət zamanı əlaqələrimizin daha da intensivləşdirilməsinin vacibliyini bildirdiyini vurğuladı. Dövlət başçısı məmnunluqla qeyd etdi ki, bu telefon danışığından sonra Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, Abu-Dabi Milli Neft Şirkətinin idarəedici direktoru, BƏƏ-nin iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi, "Masdar" şirkətinin sədri Sultan Əhməd Əl Caber Azərbaycanda səfərdə oldu və səfər zamanı əməkdaşlığımızın strateji əhəmiyyəti qeyd edildi, həmçinin BƏƏ-nin ölkəmizdə konkret investisiya layihələri ilə bağlı səmərəli müzakirələr aparıldı. Prezident İlham Əliyev bu baxımdan Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının təməlinin qoyulmasının önəmini vurğuladı, hazırda ölkələrimiz arasında bərpaolunan enerji sahəsində çoxmilyardlı investisiya portfeli üzərində iş aparıldığını bildirdi və bunu iki ölkə arasında dostluq, qardaşlıq və böyük qarşılıqlı marağın göstəricisi kimi dəyərləndirdi. Dövlət başçısı vurğuladı ki, Azərbaycanda çox əlverişli investisiya iqlimi, cəlbedici enerji sektoru mövcuddur və bu, BƏƏ hökuməti tərəfindən də yüksək qiymətləndirilir. Prezident İlham Əliyev ölkələrimiz arasında möhkəm siyasi əlaqələrin olduğunu bildirdi, eyni zamanda digər sahələrdə, o cümlədən nəqliyyat sahəsində də əməkdaşlığın genişlənməsi üçün böyük imkanların olduğunu dedi və artıq ölkəmizin nəqliyyat infrastrukturuna BƏƏ tərəfindən investisiya qoyulduğunu qeyd etdi. Azərbaycanın müxtəlif istiqamətlərə yönəlmiş çoxşaxəli mühüm regional nəqliyyat habına çevrildiyini vurğulayan dövlətimizin başçısı bu sahədə əməkdaşlığımızın genişləndirilməsi üçün çox yaxşı perspektivlərin olduğunu dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir BƏƏ Prezidenti Şeyx Xəlifə bin Zayed Əl-Nəhyan, BƏƏ-nin vitse-prezidenti Şeyx Məhəmməd bin Rəşid Əl-Maktum və Abu-Dabi Əmirliyinin vəliəhdi Şeyx Məhəmməd bin Zayed Əl-Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Xəlifə bin Zayed Əl-Nəhyan, Şeyx Məhəmməd bin Rəşid Əl-Maktum və Şeyx Məhəmməd bin Zayed Əl-Nəhyana çatdırmağı xahiş etdi.

Ölkələrimiz arasında güclü qardaşlıq əlaqələrinin mövcud olduğunu vurğulayan səfir BƏƏ-nin siyasi, iqtisadi, sosial, mədəni sahələrdə əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində böyük səylər göstərdiyini bildirdi.

# İlham ƏLİYEV: "Brüssel razılaşması başlanğıc nöqtəsi oldu"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Avropa İttifaqının nümayəndə heyətini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:



- Sizi bir daha görməyə çox şadam. Şadam ki, Brüsseldəki görüşümüzdən sonra bizi ziyarət edirsiniz. Çox konstruktiv, yaxşı nəticələri və nailiyyətləri olan üçtərəfli görüşdən sonra artıq iki həftə keçib. Səylərinə, bizə çox mühüm məsələləri müzakirə etmək və normallaşma prosesinin başlanğıcı ilə bağlı razılığa gəlmək imkanı verən ab-hava yaratdığına görə Prezident Şarl Mişelə minnətdarlığımı çatdırmağı sizdən xahiş edirəm. Düşünürəm ki, bu, başlanğıc nöqtəsi idi. Çünki biz sərhəd üzrə komissiyaların və eyni zamanda sülh sazişi üzrə işçi qrupların yaradılması barədə razılığa gəldik. Biz bununla bağlı əvvəllər də danışırdıq və bildiyiniz kimi, İkinci Qarabağ müharibəsinin bitməsindən sonra Azərbaycanın mövqeyi həmişə ondan ibarət idi ki, biz sülh sazişi ilə bağlı danışıqlara başlamalıyıq. Hesab edirəm ki, rəsmi başlanğıc nöqtəsi aprelin 6-da Brüsseldə baş tutdu. O vaxtdan bəri biz işləyirdik, Xarici İşlər Nazirliyi çalışırdı və mənim administrasiyam sizin komandanızla təmasda idi və biz razılaşdığımız kimi, başlamaya hazırıq. Hesab edirəm ki, bu irəliləyişi davam etdirməyimiz və hər iki tərəfin razılaşmalara riayət etməsi mühüm əhəmiyyət kəsb edir.

Ermənistan tərəfi ilə aydınlaşdırılmasına ehtiyac olan məsələlərdən biri də Azərbaycanla və Naxçıvan Muxtar Respublikası ilə kommunikasiyalar məsələsidir. Mən həm dəmir yolunu, həm də avtomobil yolunu nəzərdə tuturam. Çünki dəmir yolu ilə bağlı mən Prezident Mişelə məlumat verdim ki, biz dəmir yolunun Azərbaycan ərazisində 100 kilometrdən artıq 60 kilometrlik hissəni tikmişik və tikintini gələn il tamamlayacağıq. Lakin əfsuslar olsun ki, Ermənistanda onlar heç bu işin texniki-iqtisadi əsaslandırılmasına başlamayıblar, bu da prosesin ləngiyə bilməsini göstərir.

Avtomobil yoluna gəldikdə, Azərbaycan tərəfindən fəal tikinti işləri gedir və yolun böyük hissəsi artıq inşa olunub. Biz, həmçinin ümid edirik, yəqin ki, növbəti ilin sonuna kimi avtomagistralı Ermənistan sərhədinə çatdıracağıq. Lakin təəssüf ki, Brüssel görüşü zamanı Ermənistanın baş naziri coğrafi koordinatları qeyd etməmişdir. Mən fevralın 4-də videokonfrans vasitəsilə keçirilən görüşdə bu məsələni qaldırdım, lakin cavab olmadı. Aprelin 6-da mən yenidən yolun coğrafi koordinatlarının təqdim edilməsini istədim, lakin cavab olmadı. Ümidvaram ki, tezliklə onu əldə edəcəyik.

Lakin mən ümumilikdə Brüsseldəki görüşün nəticələrini müsbət hesab edirəm. Mən bunu aprelin 12-də ictimaiyyətə açıqladım. Növbəti gün Ermənistanın baş naziri də normallaşma prosesi və Ermənistanın Azərbaycanın irəli sürdüyü 5 prinsipi qəbul etməsi barədə açıq şəkildə danışdı. Bu proses həqiqətən də daha bir dönüş nöqtəsidir. Düşünürəm ki, müsbət şərhlərdir. İndi hər iki tərəfin bu rəsmi açıqlamasından sonra biz ciddiyyətimizi masa üzərində sübuta yetirməliyik. Burada biz Avropa İttifaqının, xüsusilə də artıq prosesə dərindən cəlb olunmuş Prezident Şarl Mişelin səylərinə çox ümid edirik. O, artıq prosesə çox yaxşı bələddir. Düşünürəm ki, bu, uğurlu danışıqlar üçün çox ümidverici mühit yaradır. Beləliklə, biz bu gün bunu daha ətraflı şəkildə müzakirə edəcəyik. Sadəcə bizim mövqeyimizə görə, Brüsseldə baş verənlərlə və aprelin 6-dan sonra baş verən hadisələrlə bağlı rəsmi mövqeyimizi ifadə etmək istədim.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi **Toivo KLAAR** dedi:

- Təşəkkür edirəm, cənab Prezident. Həmçinin Prezident Mişel də Sizə ən xoş arzularını çatdırır. Qeyd etdiyiniz kimi, o, prosesə və prosesin dəstəklənməsinə çox sadiqdir. Onun fikri, bizim fikrimiz ondan ibarətdir ki, Brüsseldəki görüş çox uğurlu oldu. Qeyd etdiyiniz kimi, biz razılaşdırılmış məsələlərin həyata keçirilməsi və davam etdirilməsinin təmin olunması üzərində işləməliyik. Mənim səfərimin məqsədi bundan ibarətdir. Mən Sizin növbəti addımları nədə gördüyünüzü eşitmək və Avropa İttifaqı olaraq normallaşma prosesini dəstəkləmək, əhatəli nizamlanma istiqamətində çalışmaq üçün nə edə biləcəyimizi öyrənmək üçün bu gün burada olacağam, həftənin ikinci yarısında isə İrəvana gedəcəyəm.

## 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 77-ci ildönümü ilə əlaqədar **qərara alıram:**

1. 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1 500,0 (bir min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750,0 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 3,5 milyon (üç milyon beş yüz min) manat vəsait ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş vəsaitin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2022-ci il*



## Prezidentin yeni sərəncamı İkinci Dünya müharibəsi iştirakçıları və sənəddə nəzərdə tutulan digər şəxslərdən ibarət 4500-ə yaxın şəxsə şamil olunacaq

Prezident İlham Əliyevin imzaladığı yeni "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2022-ci il 19 aprel tarixli sərəncam həmin kateqoriyadan olan vətəndaşlara dövlət başçısının yüksək diqqət və qayğısının növbəti təzahürüdür.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, sərəncama əsasən, İkinci Dünya müharibəsində qələbənin 77-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçısı olmuş 96 nəfərin hər birinə 1500 manat məbləğində birdəfəlik yardım ödəniləcək.

Həmçinin İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslər, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarından ibarət 4395 nəfərin hər birinə isə 750 manat məbləğində birdəfəlik yardım veriləcək.

Beləliklə, sərəncam 4500-ə yaxın şəxsi əhatə edəcək.

Birdəfəlik maddi yardımların verilməsi üçün sərəncamla Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 3,5 milyon manat ayrılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birdəfəlik maddi yardım İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək.

# Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Gürcüstanda rəsmi səfərdədir



Aprelin 19-da Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Gürcüstanda rəsmi səfərdədir. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Şota Rustaveli adına Tbilisi Beynəlxalq Hava Limanında nümayəndə heyətini Gürcüstan Parlamenti Sədrinin müavini, Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Arçil Talakvadze, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze, ölkəmizin Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Tbilisidə Ulu Öndərin abidəsini və Qəhrəmanlar Memorialını ziyarət edib





Gürcüstanda rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti aprelin 19-da Tbilisidəki Heydər Əliyev parkında Ümummilli Liderin abidəsini ziyarət edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Ulu Öndər Heydər Əliyevin abidəsi önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad edib. Parlamentin Sədrini deputatlar, ölkəmizin Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

Milli Məclisin Sədri Gürcüstana səfəri çərçivəsində, həmçinin Tbilisidə Qəhrəmanlar Memorialını ziyarət edib və burada Gürcüstanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanların abidəsi önünə əklil qoyub.

Burada Azərbaycanın və Gürcüstanın Dövlət himnləri səsləndirilib.

*"Azərbaycan"*

# Ölkələrimiz arasında əlaqələr tarixi köklərə söykənir

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Gürcüstana rəsmi səfəri çərçivəsində aprelin 19-da iki ölkənin parlamentlərarası əlaqələr üzrə dostluq qrupları üzvlərinin görüşü keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin verdiyi məlumata görə, Gürcüstan Parlamentinin sədr müavini, Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Arçil Talakvadze həmkarlarını ölkəsində salamlayaraq belə görüşlərin keçirilməsinin əlaqələrin möhkəmləndirilməsi baxımından vacibliyini qeyd edib. O, iki ölkə arasında dostluq, qardaşlıq münasibətlərinin olduğunu deyərək, xalqlarımızın tarix boyu mehriban əlaqələrindən bəhs edib.

Dostluq qrupunun rəhbəri parlamentlərarası əlaqələr üzrə dostluq qrupları arasında əməkdaşlığın intensivləşdirilməsinin vacibliyini, qanunverici orqanlar arasında münasibətlərin bundan sonra daha da inkişaf edəcəyinə inamını bildirib. Bu sahədə əlaqələrin gücləndirilməsində, habelə informasiya və təcrübə mübadiləsi baxımından parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətli olduğunu vurğulayıb.

Milli Məclisin Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev səmimi görüşə görə təşəkkürünü bildirib. O, Gürcüstanın bizim üçün yaxın dost və müttəfiq olduğunu, ölkələrimiz arasında əlaqələrin tarixi köklərə söykəndiyini deyib, dövlətlərimizin strateji tərəfdaşlıq münasibətlərindən bəhs edib.

Milli Məclisin deputatı bildirib ki, qanunverici orqanlarımız dövlətlərarası münasibətlərin inkişafında mühüm rol oynayır. Hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir. Bu qruplar arasında mütəmadi əlaqələrin qurulması qanun yaradıcılığı sahəsində təcrübə və informasiya mübadiləsi baxımından önəmlidir. Qeyd edilib ki, postpandemiya dövründə nümayəndə heyətlərinin qarşılıqlı səfərləri əlaqələrimizin daha da güclənməsinə təkan verəcək. Bildirilib ki, hər iki ölkə parlamentinin deputatları, eyni zamanda, mötəbər beynəlxalq parlament qurumları çərçivəsində də səmərəli əməkdaşlıq edirlər, bir-birilərinin mövqelərini dəstəkləyirlər.

Görüşdə Milli Məclisin deputatları Vüqar İskəndərov, Kəmaləddin Qafarov, Cavid Osmanov, Etibar Əliyev, Fəzail Ağamalı, Sabir Rüstəmxanlı və Naqif Həmzəyev iştirak ediblər.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# Azərbaycan və Gürcüstan münasibətlərinin inkişafında qanunverici orqanların mühüm rolu var

## Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova aprelin 19-da Gürcüstana rəsmi səfəri çərçivəsində Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb.



Milli Məclisin Sədrini Gürcüstanda salamlamaqdan məmnunluğunu bildirən Prezident Salome Zurabişvili belə səfərlərin qarşılıqlı təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayıb. Qarşılıqlı əməkdaşlığın inkişafında parlamentlərin rolunu xüsusi qeyd edən Gürcüstanın dövlət başçısı parlamentlər arasındakı sıx münasibətlərin qurulmasına görə təşəkkürünü bildirib. O, Gürcüstanın və Azərbaycanın hər zaman beynəlxalq müstəvidə bir-birini dəstəkləməsindən məmnunluğunu ifadə edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, söhbət zamanı xanım Salome Zurabişvili diasporların fəaliyyəti barədə fikirlərini bölüşüb, Azərbaycana sülh və sabitlik arzularını ifadə edib.

Milli Məclisin Sədri Sahibə Qafarova nümayəndə heyətinə göstərilən qonaqpərvər münasibətə görə təşəkkürünü bildirib. Spiker qeyd edib ki, qonşu və dost ölkələr olan Azərbaycan və Gürcüstan arasında münasibətlər çoxəsrlik tarixə malikdir. Müstəqillik dövründə isə bu əlaqələrimiz daha da inkişaf edib və bu il biz diplomatik əlaqələrimizin qurulmasının 30-cu ildönümünü qeyd edəcəyik.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu dostluq münasibətləri bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən illər ərzində Azərbaycan və Gürcüstan arasında imzalanmış sənədlər müxtəlif sahələrdə əməkdaşlığımız üçün möhkəm hüquqi baza yaradır.

Sahibə Qafarova iki qonşu və dost ölkə arasında İqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın fəaliyyətini xüsusi qeyd edib. Bildirib ki, Gürcüstan Azərbaycanın həyata keçirdiyi nəhəng beynəlxalq layihələrin fəal iştirakçısıdır.

İki ölkənin parlamentləri arasında münasibətlərdən danışan spiker diqqətə çatdırıb ki, Azərbaycan və Gürcüstan münasibətlərinin inkişafında qanunverici orqanların özünəməxsus rolu var. Parlamentlərimiz həm ikitərəfli, həm də çoxtərəfli formatda əməkdaşlıq edirlər. Hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir və nümayəndə heyətlərimiz beynəlxalq parlament qurumlarında uğurla əməkdaşlıq edirlər.

Söhbət zamanı Milli Məclisin Sədri Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Qələbə haqqında danışaraq bildirib ki, Azərbaycan Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarını azad edərək ərazi bütövlüyünü bərpa edib. Spiker bildirib ki, Ermənistan ərazilərimizi işğal altında saxladığı müddətdə oradakı bütün maddi-mədəni sərvətlərimizi talan edib, şəhərlərimizi və kəndlərimizi dağıdıb. Sahibə Qafarova diqqətə çatdırıb ki, Ermənistan-Azərbaycan münaqişəsi artıq tarixə qovuşub və hazırda Azərbaycan məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması üçün azad edilmiş əraziləri minalardan təmizləyir, bərpa edir. Azərbaycan Ermənistana bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin başlanması, regionda bütün kommunikasiyaların bərpa olunması və münasibətlərin normallaşmasına gətirib çıxaracaq sülh sazişinin imzalanması barədə təkliflər verib. Ümid edirik ki, tezliklə iki ölkə arasında sülh sazişinin imzalanması bütün regionun inkişafına və çiçəklənməsinə böyük töhfə verəcəkdir.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# *İrakli QARİBAŞVİLİ:* "Prezident İlham Əliyev ölkəsinin ərazi bütövlüyünü bərpa etmiş lider kimi böyük hörmətə layiqdir"

## Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstanın Baş naziri ilə görüşüb





Milli Məclisin sədri Sahibə Qafarova Gürcüstana rəsmi səfəri çərçivəsində aprelin 19-da bu ölkənin Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin verdiyi məlumata görə, Baş nazir İrakli Qaribaşvili Sahibə Qafarovanı və parlament nümayəndə heyətinin üzvlərini ölkəsində salamlamaqdan məmnunluğunu bildirib. O, Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətlərinin, dostluq əlaqələrinin müxtəlif sahələrdə inkişafının təqdirəlayiq olduğunu qeyd deyib. Bildirib ki, Azərbaycan-Gürcüstan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə çatmasının əsası xalqlarımızın böyük liderləri Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən qoyulub.

Baş nazir onun salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib. Bildirib ki, Prezident İlham Əliyev ölkəsinin ərazi bütövlüyünü bərpa etmiş lider kimi böyük hörmətə layiqdir.

İrakli Qaribaşvili parlamentlərarası əlaqələrin inkişafının əhəmiyyətindən söhbət açaraq nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əlaqələrimizi daha da gücləndirdiyini deyib. O, iki ölkənin həyata keçirdiyi birgə layihələrin davam etdirilməsinin vacibliyini qeyd edib.

Baş nazir Gürcüstan, Türkiyə və Azərbaycan üçtərəfli əlaqələrinin inkişafından da danışıb, bu əlaqələrin daha da gücləndirilməsini dəstəklədiklərini diqqətə çatdırıb.

Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstana rəsmi səfərindən məmnunluğunu bildirib. O, Azərbaycan parlamentinin spikeri kimi Gürcüstana ilk rəsmi səfəri olduğunu və bu səfərin ölkələrimiz arasında münasibətlərin daha da inkişafına xidmət edəcəyinə inamını bildirib.

Parlamentin sədri Azərbaycanla Gürcüstan arasındakı münasibətlərin möhkəm təməl üzərində qurulduğunu, bu il diplomatik əlaqələrimizin 30 illiyinin tamam olacağını bildirib. O, müstəqillik illərində Azərbaycan və Gürcüstan arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, ölkələrimiz arasında həyatın müxtəlif sahələrində sıx əməkdaşlığın mövcudluğunu söyləyib.

Azərbaycan parlamentinin spikeri yüksəksəviyyəli səfərlərin və görüşlərin ikitərəfli münasibətlərin inkişafında müstəsna rolunu vurğulayıb. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Gürcüstana, Gürcüstan tərəfinin, o cümlədən Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin Azərbaycana qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd edib. O, Baş nazir İrakli Qaribaşvilinin də ötən ilin mayında ölkəmizə rəsmi səfərini, onunla Milli Məclisdəki görüşünü məmnunluqla xatırlayıb.

Milli Məclisin spikeri iqtisadi sahədəki əlaqələrin əhəmiyyətindən danışaraq bildirib ki, hazırda Azərbaycanla Gürcüstan arasında siyasi, iqtisadi, ticarət, humanitar və digər sahələri əhatə edən çoxsaylı sənədlər imzalanıb. O qeyd edib ki, Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşlarından və investorlarından biridir. Bir çox Azərbaycan şirkətləri Gürcüstanda uğurla fəaliyyət göstərir.

Sahibə Qafarova İqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın da səmərəli fəaliyyət göstəridiyini, onun iqtisadi sahədə əlaqələrin daha da dərinləşdirilməsinə geniş imkanlar yaratdığını məmnunluqla söyləyib. Ölkələrimizin irimiqyaslı enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində səmərəli əməkdaşlıq etdiklərini xüsusi qeyd edib. Bildirib ki, bu layihələr regionumuzun sabitliyinə və inkişafına mühüm töhfələr verir.

Milli Məclisin Sədri dövlətlərarası əlaqələrin möhkəmləndirilməsində parlamentlərin xüsusi rolunu qeyd edib. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətindən danışıb. O, Azərbaycan parlamentinin qanunvericilik fəaliyyəti, onun komitələri barədə məlumat verib. Bildirib ki, hər iki ölkənin qanunvericilik orqanlarında fəaliyyət göstərən dostluq qrupları təcrübə və informasiya mübadiləsi baxımından parlamentlər arasında körpü rolunu oynayır.

Görüşdə Sahibə Qafarova 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın öz əzəli torpaqlarını 30 il davam edən erməni işğalından azad etməsi və ərazi bütövlüyümüzü bərpa etməsi barədə də danışıb. Qeyd edib ki, Azərbaycan bununla BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi müvafiq qətnamələrin yerinə yetirilməsini təmin edib. Bu gün Ermənistan ilə Azərbaycan arasında münaqişə artıq mövcud deyil. Hazırda Azərbaycan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və quruculuq işlərini həyata keçirir.

Ermənistanın işğal zamanı şəhər və kəndlərimizi dağıtdığı, tarixi, mədəni və dini abidələrin vandalizmə məruz qaldığı baş nazirin diqqətinə çatdırılıb. Spiker bildirib ki, bütün infrastruktur yenidən qurulur, "yaşıl enerji" zonaları elan edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni şəhər və kəndlər inşa edilir, keçmiş məcburi köçkünlərin tezliklə öz evlərinə qayıtması üçün lazımi şərait yaradılır.

Milli Məclisin Sədri söyləyib ki, postmünaqişə dövründə Cənubi Qafqazda yeni reallıqlar və yeni imkanlar yaranıb. Azərbaycan Ermənistana regionda münasibətlərin normallaşmasına gətirib çıxaracaq sülh sazişinin imzalanması barədə təkliflər verib.

Görüşdə digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Gürcüstan Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrin fəal iştirakçısıdır

## Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova aprelin 19-da Gürcüstana rəsmi səfəri çərçivəsində ölkə parlamentinin sədri Şalva Papuaşvili ilə görüşüb.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Gürcüstan parlamentinin sədri azərbaycanlı həmkarını salamlayaraq qonşu və dost ölkə olan Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiklərini bildirib. Şalva Papuaşvili iki ölkə arasında əməkdaşlığın regional çərçivədən çıxaraq beynəlxalq müstəviyə yüksəldiyini, xüsusən siyasi, iqtisadi, nəqliyyat, ticarət, humanitar məsələlərdə möhkəm və uğurlu işbirliyi həyata keçirildiyini qeyd edib. O deyib ki, Gürcüstan və Azərbaycan bir-birini beynəlxalq təşkilatlar çərçivəsində hər zaman dəstəkləyir. Xalqlarımız arasında münasibətlərin tarixi köklərə əsaslandığını söyləyən spiker gələcəkdə bu əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini bildirib. Gürcüstan parlamentinin sədri ölkəsinin həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və bundan sonra da dəstəkləyəcəyini qeyd edib. Gürcüstan spikeri Azərbaycanın işğaldan azad etdiyi ərazilərində həyata keçirdiyi bərpa-quruculuq işləri və bu işlərdə Azərbaycan rəhbərliyinin tətbiq etdiyi müasir yanaşmanı təqdirəlayiq hesab etdiklərini deyib.

Azərbaycan və Gürcüstanın qanunverici orqanları arasında münasibətlərdən danışan Şalva Papuaşvili diqqətə çatdırıb ki, parlamentlərimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda əməkdaşlıq mövcuddur. Bu baxımdan parlament rəhbərliyinin və deputatların qarşılıqlı səfərləri, mütəmadi görüşləri xalqlarımızın ümumi mənafelərinə xidmət edir. Söhbət zamanı Gürcüstan parlamentinin Sədri humanitar, mədəni, təhsil sahəsində əlaqələrimizin daha da inkişaf etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini deyib. Milli Məclisin Sədri Sahibə Qafarova səmimi sözlərə və Gürcüstana rəsmi səfərə dəvətə görə həmkarına təşəkkürünü bildirib. Spiker diqqətə çatdırıb ki, bu, onun Milli Məclisin Sədri kimi Gürcüstana ilk rəsmi səfəridir. Qonşu və dost ölkələr olan Azərbaycan və Gürcüstan arasında münasibətlərin çoxəsrlik tarixinə nəzər salan Milli Məclisin Sədri deyib ki, xalqlarımız əsrlər boyu bir-birinə dəstək olub. Müstəqillik dövründə isə bir çox sahələrdə əlaqələrimiz daha da inkişaf edib və bu il ölkələrimiz arasında diplomatik əlaqələrin yaradılmasının 30 illiyini qeyd edəcəyik.

Milli Məclisin Sədri bildirib ki, Gürcüstan Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrin fəal iştirakçısıdır. Birgə neft, qaz və nəqliyyat layihələri ölkələrimiz arasında güclü tərəfdaşlığın olduğunu göstərir. İki ölkənin parlamentləri arasında əməkdaşlıqdan danışan spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, qanunvericilik orqanlarımız arasında çox səmərəli əməkdaşlıq mövcuddur.

Azərbaycan və Gürcüstan münasibətlərinin inkişafında parlamentlərimiz özünəməxsus rola malikdirlər. Bu münasibətlər həm ikitərəfli, həm də çoxtərəfli formatda olan əməkdaşlıqda öz əksini tapır. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qrupları var və milli nümayəndə heyətlərimiz beynəlxalq parlament təşkilatlarında qarşılıqlı təmas və sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərirlər. Parlament komitələrinin işi vasitəsilə ali qanunvericilik orqanları arasında münasibətləri daha da dərinləşdirmək üçün geniş imkanlar var. Komitələrimiz hüquqi, iqtisadi, humanitar və digər istiqamətlərdə qanunvericilik sahəsində təcrübə mübadiləsi apara bilərlər. Bu baxımdan, Azərbaycan, Gürcüstan və Türkiyə parlamentlərinin beynəlxalq əlaqələr komitələrinin mövcud üçtərəfli əməkdaşlıq formatı çox faydalı ola bilər.

Söhbət zamanı Sahibə Qafarova Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Qələbə haqqında da danışıb. O, Vətən müharibəsi zamanı Gürcüstanın tutduğu ədalətli mövqeyə və dəstəyə görə təşəkkürünü ifadə edib. Bildirib ki, Azərbaycan Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan 20 faiz ərazisini azad edərək ərazi bütövlüyünü bərpa edib. Ölkəmiz bununla bir sıra beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərin, həmçinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını özü həyata keçirib. Spiker diqqətə çatdırıb ki, Ermənistan ərazilərimizi işğal altında saxladığı müddətdə oradakı bütün maddi-mədəni sərvətlərimizi talan edib, şəhərlərimizi və kəndlərimizi dağıdıb. Hazırda Azərbaycan məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması üçün sürətli bərpa işləri aparır. Burada kommunikasiyaların bərpası, həyata keçiriləcək layihələr bütün regionun inkişafına təkan verəcəkdir.

Milli Məclisin Sədri onu da deyib ki, biz müharibədən yox, sülhdən danışmaq istəyirik. Buna görə də Azərbaycan münasibətlərin normallaşdırılması üçün Ermənistana 5 maddədən ibarət təkliflər irəli sürüb. Ümid edirik ki, Ermənistan tərəfi öz üzərinə düşən öhdəliyi yerinə yetirəcək, tezliklə iki ölkə arasında sülh müqaviləsi imzalanacaq və regionda davamlı sülh, sabitlik təmin ediləcək. Sonra görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdən sonra Milli Məclisin Sədri "Fəxri qonaqlar kitabı"na ürək sözlərini yazıb.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# Azərbaycan, Gürcüstan və Türkiyə parlament təmsilçiləri Şuşada görüşəcəklər

## Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvili və Milli Məclisin sədri Sahibə Qafarova mətbuat üçün birgə bəyanat veriblər



Gürcüstan parlamentinin Sədri Şalva Papuaşvili və Milli Məclisin Sədri Sahibə Qafarovanın görüşündən sonra tərəflər media nümayəndələri ilə görüşərək birgə bəyanat veriblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə Milli Məclisinin Sədri deyib ki, parlamentin Sədri kimi Gürcüstana ilk rəsmi səfərini həyata keçirir. Dost Gürcüstana səfər etməyindən məmnunluq ifadə edən spiker Sahibə Qafarova Gürcüstan parlamentinin sədri Şalva Papuaşviliyə dəvətinə, nümayəndə heyətinə göstərdiyi qonaqpərvərliyə görə təşəkkürünü bildirib.

Milli Məclisin Sədri qeyd edib ki, bu səfər heç də təsadüfi xarakter daşımır. Azərbaycan və Gürcüstan iki mehriban qonşu və dost ölkələrdir. Xalqlarımız arasında dostluğun qədim tarixi var. Onlar əsrlər boyu bir yerdə olub, həmişə dostluq, mehriban qonşuluq şəraitində yaşayıblar, əməkdaşlığımız da məhz bu möhkəm təməl üzərində qurulub. Bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş dövlətlərarası münasibətlərimiz ardıcıl şəkildə inkişaf edir.

Sahibə Qafarova vurğulayıb ki, ölkələrimiz arasındakı ikitərəfli əlaqələr çərçivəsində parlamentlərarası əməkdaşlıq xüsusi yerə malikdir və hazırda parlamentlərarası əlaqələrimiz çox yüksək səviyyədədir.

Biz Gürcüstan Parlamentinin sədri cənab Şalva Papuaşvili ilə parlamentlərimiz arasında mövcud olan münasibətlərin bugünkü vəziyyətini və inkişaf perspektivlərini nəzərdən keçirdik. Ötən dövr ərzində parlament sədrlərinin qarşılıqlı səfərləri əlaqələrimizin inkişafına öz töhfəsini verib. Hər iki ölkə parlamentində fəaliyyət göstərən dostluq qrupları qanunverici orqanlar arasında bir növ körpü rolunu oynayırlar.

Milli Məclisin Sədri daha sonra deyib ki, görüş çərçivəsində gələcəkdə əməkdaşlığımızın daha da genişləndirilməsi yolları müzakirə olunub. Parlament komitələrimiz arasında qanunvericilik sahəsində təcrübə mübadiləsi mümkün istiqamətlərdən biri kimi nəzərdən keçirilə bilər. Bu baxımdan, Azərbaycan, Gürcüstan və Türkiyə parlamentlərinin beynəlxalq əlaqələr komitələrinin mövcud üçtərəfli əməkdaşlıq formatı olduqca faydalıdır. Bu formatda növbəti görüş may ayında Bakı və Şuşa şəhərlərində keçiriləcəkdir.

Sahibə Qafarova qeyd edib ki, görüşdə Azərbaycanın öz ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoymasından sonra görülən işlər haqda məlumat verib. Bildirib ki, hazırda Azərbaycan işğaldan azad edilmiş ərazilərində öz imkanları hesabına geniş bərpa-quruculuq işləri həyata keçirir. Bütün infrastruktur yenidən bərpa olunur, yeni şəhərlər, kəndlər tikilir. Ermənistan bütün şəhər və kəndlərimizi qəsdən dağıdıb, bütün tarixi, mədəni və dini abidələrimizi vandalizmə məruz qoyub. İşğaldan azad edilmiş ərazilərdə görüləcək işlər çoxdur.

Milli Məclisin Sədri gürcüstanlı həmkarı ilə görüşdə qeyd edib ki, postmünaqişə dövründə regionda artıq yeni reallıq və yeni əməkdaşlıq imkanları yaranıb. Bu imkanların reallaşdırılması regionda sülhə, sabitliyə və təhlükəsizliyə töhfə verəcəkdir. Azərbaycan Ermənistana münasibətlərin normallaşdırılması üçün 5 prinsipdən ibarət təklif verib. Aprelin 6-da Brüsseldə keçirilmiş son görüş zamanı aparılan müzakirələr göstərdi ki, Ermənistan tərəfi bu təklifə müsbət yanaşır. Ümid edirik ki, Ermənistan vaxt itirmədən öz üzərinə düşəni edəcək. Regionda artıq müharibədən yox, sülh, sabitlik və əməkdaşlıqdan danışmağın vaxtıdır.

Media nümayəndələri ilə görüşdə Sahibə Qafarova dost Gürcüstana səfərinin faydalı olduğunu deyib. Spiker vurğulayıb ki, bu səfər zamanı aparılan danışıqlar Azərbaycanla Gürcüstan arasında əlaqələrin daha da inkişafına və möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

*Aydan XƏLİLOVA, "Azərbaycan"*

# Əmək pensiyaları sahəsində sosial ədalət və sosial müdafiə tədbirləri gücləndirilir

Aprelin 19-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin yaz sessiyasında növbəti iclası keçirilib.

İclası açan komitənin sədri Musa Quliyev gündəlik barədə məlumat verib. Bildirib ki, gündəliyə "Əmək pensiyaları haqqında", "Sosial müavinətlər haqqında" qanunlarda və Əmək Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri daxil edilib.

Əvvəlcə "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) müzakirəyə təqdim edən komitə sədri sənədin mahiyyəti barədə danışıb. Qeyd edib ki, müzakirəyə çıxarılan dəyişikliklər ölkəmizdə 2019-cu ildən başlayan dərin islahatlar paketinin tərkib hissəsi olan əmək pensiyaları sahəsində sosial ədalətin və sosial müdafiənin gücləndirilməsi tədbirlərinin davamıdır. Komitə sədri bildirib ki, təklif olunan dəyişikliklərdən məqsəd əmək pensiyalarının təyinatının və ödənişinin təkmilləşdirilməsi, sığorta prinsiplərinə əsaslanan sistemin dayanıqlığının artırılması, elektron hökumət çərçivəsində avtomatlaşdırma işinin sürətləndirilməsidir. Dəyişikliklərin cəmiyyətin sosial sifarişindən qaynaqlandığını qeyd edən Musa Quliyev sənəddə bir sıra istiqamətlərdə vətəndaşların pensiyaya çıxma şərtlərinin yumşaldılmasından danışıb. Komitə sədri bu dəyişikliklərin qəbulundan 17-20 min vətəndaşın faydalanacağını və bunun üçün 4,2 milyon manat əlavə maliyyə vəsaiti tələb ediləcəyini bildirib.

Sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihəsi barədə geniş məlumat verib. O, "Əmək pensiyaları haqqında" qanuna təklif edilən ümumilikdə 10 maddə üzrə 40 dəyişikliyi deputatların diqqətinə çatdırıb.

Adil Vəliyev qanun layihəsində təklif olunan kişilərin və qadınların pensiyaya çıxma yaşının unifikasiyası, çoxuşaqlı ailələrə güzəştlərin artırılması, eyni zamanda pensiyaya çıxma şərtlərinin sadələşdirilməsi, pensiyanın bir növündən digərinə keçidin, daha tez pensiyaya çıxma hallarının genişləndirilməsi kimi müddəalar barədə ayrı-ayrılıqda məlumat verib.

O, sonradan hərbi xidmətə qəbul edilmiş pensiyaçı hərbi rütbəli şəxslərin pensiyasının son təminat xərcliyinə görə yenidən hesablanaraq artırılması, ailə başçısını itirmiş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, ailə başçısına şəhid statusu verildiyi tarixlə müraciət olunan tarix arasındakı müddət üzrə də pensiya məbləğinin ödənilməsi kimi dəyişikliklərin müsbət xarakterini vurğulayıb.

Layihə ilə bağlı əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov çıxış edərək son dövrlər Azərbaycanda pensiya təminatı sahəsində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi, habelə şəffaflığın, vətəndaş məmnunluğunun artırılması məqsədi ilə həyata keçirilən islahatlardan danışıb. O, keçirilən pensiya islahatlarının nəticələri, bu sahədə müsbət dinamikanı təsdiqləyən göstəriciləri diqqətə çatdırıb, qanun layihəsində təklif olunan dəyişikliklərin aktuallığını şərtləndirən əsas amillərdən bəhs edib.

Sənədin müzakirəsində Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızı, komitənin üzvləri Jalə Əliyeva, Sevinc Hüseynova, Vüqar Bayramov, İlham Məmmədov, Ziyad Səmədzadə, Əziz Ələkbərov, Aqil Məmmədov çıxış ediblər, sənədlə bağlı fikirlərini səsləndiriblər. Deputatlar dəyişikliklərin mütərəqqi xarakter daşıdığını qeyd ediblər, sosial müdafiə tədbirlərinin genişləndirililməsi imkanları ilə bağlı fikirlərini bildiriblər.

Qarşılıqlı fikir mübadiləsi və dinləmələr şəraitində keçən müzakirələrdə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, Dövlət Sosial Müdafiə Fondunun direktoru Himalay Məmişov deputatların qaldırdıqları məsələlərə münasibətlərini bildiriblər, suallarını cavablandırıblar.

Müzakirələrin sonunda deputatlar "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

Sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) və Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib.

Adil Vəliyev bildirib ki, "Əmək pensiyaları haqqında" qanuna dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğunlaşdırılması məqsədilə "Sosial müavinətlər haqqında" qanunun müvafiq müddəalarına mahiyyət və məzmun dəyişiklikləri təklif edilib. Belə ki, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa müavinətin digər sosial ödənişlərdən asılı olmayaraq təyin edilməsi, həmçinin şəxsə düşən pensiyanın məbləği onun aldığı, yaxud almalı olduğu sosial müavinətin məbləğindən az olacağı təqdirdə ona müavinətin təyin olunması imkanı yaradılır.

Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı şöbə müdiri bildirib ki, məcəllənin 49-cu maddəsinin adını dəqiqləşdirməklə yanaşı, fiziki şəxs olan işəgötürənlə bağlanılmış əmək müqaviləsinə xitam verilməsi hallarının tənzimlənməsi məqsədilə hazırlanıb.

Komitə bu qanun layihələrini də birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə edib.

İclasda deputat Rauf Əliyev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Hesablama Palatasının əməkdaşları da iştirak ediblər.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Onkoloji xəstələrin pensiya hüquqları ilə bağlı qanunvericiliyə dəyişiklik ediləcək

Milli Məclisin Səhiyyə komitəsinin aprelin 19-da keçirilən iclasında 6 məsələ müzakirə olunub.

Komitənin sədri Əhliman Əmiraslanov ilk olaraq "Onkoloji yardım haqqında" və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini müzakirəyə təqdim edib.

Qeyd olunub ki, qanun layihəsi onkoloji xəstələrin, eləcə də dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sosial müavinət və (və ya) əmək pensiyası almaq hüququnu müəyyənləşdirir. Layihə "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihələrinə uyğunlaşdırma xarakteri daşıyır və xəstəlikdən əziyyət çəkən şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Layihə barədə fikirlərini bildirən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev diqqətə çatdırıb ki, dəyişikliyə əsasən, "Onkoloji yardım haqqında" qanunun onkoloji xəstələrin sosial müdafiəsinə dair 9-cu maddəsi və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanunun bu xəstəliyə tutulmuş şəxslərin sosial müdafiəsinə dair 9-cu maddəsi yeni redaksiyada veriləcək.

İclasda deputatlardan Rəşad Mahmudovun və İlham Məmmədovun fikirləri dinlənildikdən sonra layihə birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Daha sonra komitə sədri Əhliman Əmiraslanov üçüncü oxunuşda olan qanun layihələrini müzakirəyə çıxarıb. Bildirib ki, bunlar "Narkoloji xidmət və nəzarət haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə", həmçinin Cinayət, İnzibati Xətalar və Cinayət Prosessual məcəllələrində dəyişikliklər edilməsi ilə bağlı qanun layihələridir.

Komitə sədri vurğulayıb ki, bu beş qanun layihəsinə komitədə və plenar iclasda iki oxunuşda baxılıb və qəbul olunub.

Qanun layihələrinin müzakirələrində deputatlardan Rəşad Mahmudov, Müşfiq Məmmədli, İlham Məmmədov, Məlahət İbrahimqızı, Kamilə Əliyeva fikirlərini bildiriblər, qeyd və təkliflərini səsləndiriblər.

Qanun layihələri üçüncü oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

# Qırğız Prezidenti Sadır Japarovun Azərbaycana rəsmi səfəri

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 19-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğız Respublikasının Prezidenti Sadır Japarovu və xanımı Ayqul Japarovanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

## Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət

Aprelin 19-da Azərbaycan Respublikasına rəsmi səfərə gələn Qırğız Respublikasının Prezidenti Sadır Japarov və xanımı Ayqul Japarova Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.



AZƏRTAC xəbər verir ki, Qırğız Prezidenti Sadır Japarov Ulu Öndər Heydər Əliyevin məzarı önünə əklil qoyub.

Sonra Qırğız dövlətinin başçısı və xanımı görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini anıblar, məzarı üzərinə tər güllər düzüblər.

## Şəhidlərin xatirəsinə ehtiram



Azərbaycanda rəsmi səfərdə olan Qırğız Respublikasının Prezidenti Sadır Japarov və xanımı Ayqul Japarova aprelin 19-da Şəhidlər xiyabanını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, Şəhidlər xiyabanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Sadır Japarov və xanımı Ayqul Japarova Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarlarını ziyarət etdilər. Qırğız Prezidenti "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Qırğızın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.

Sonda Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

## Avropa İttifaqının nümayəndəsi ilə Azərbaycan və Ermənistan arasında sülh sazişinin hazırlanması məsələləri müzakirə edilib

Aprelin 19-da Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər Aİ Şurası Prezidentinin vasitəçiliyi və iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin 6 aprel tarixli Brüssel görüşünün davamı olaraq, bölgədə mövcud olan cari vəziyyət, iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar, o cümlədən Brüssel görüşündə əldə edilən razılıqların icrası ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Bölgədə sülh və təhlükəsizliyin təmin olunması üçün normallaşma istiqamətində irəliləmə, o cümlədən delimitasiya prosesinin başlanması, sülh sazişinin hazırlanması, humanitar addımların davam etdirilməsi və bütün kommunikasiya xətlərinin açılmasının vacibliyi vurğulanıb.

## Niderlandın Baş nazirinin müavini Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində görülən işlər barədə məlumatlandırılıb

Aprelin 19-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Niderland Krallığının Baş nazirinin müavini, xarici işlər naziri Vopke Hoekstra ilə telefon danışığı baş tutub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər iki dövlət arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə qarşılıqlı təbriklərini və xoş arzularını ifadə ediblər.

Tərəflər ikitərəfli gündəliyin cari məsələləri, habelə ələqələrin inkişaf perspektivləri üzrə fikir mübadiləsi aparıblar. Bu ilin 15 mart tarixində iki ölkənin Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələrin keçirilməsi məmnunluqla vurğulanıb və bu təcrübənin gələcəkdə davam etdirilməsinin əhəmiyyəti qeyd edilib. Nazir Ceyhun Bayramov həmkarına bölgədə mövcud olan vəziyyət, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində görülən işlər, bu xüsusda liderlərin Brüssel görüşündə əldə edilmiş razılaşmaların icrasının vacibliyi, eləcə də bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafına dair Azərbaycanın baxışlarına dair məlumat verib.

Nazirlər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, Ukraynadakı vəziyyət, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## İşsizlikdən sığorta ödənişlərinin təyinatı şərtləri yumşaldılıb

Son illər sosial qanunvericilik aktlarında bir sıra humanist mahiyyətli dəyişikliklər edilərək həssas qruplara yönələn sosial dəstək proqramlarının əhatə dairəsi xeyli genişləndirilib. Bu prosesin qarşıdakı dövrdə də davam etdirilməsi prioritet məsələlərdəndir.




Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən iclasda bildirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin siyasətinin mərkəzində vətəndaş amilinin dayandığını qeyd edərək, aparılan sosial siyasətin ölkədə sosial müdafiə və aktiv məşğulluq proqramlarının əhatə dairəsinin ildən-ilə genişlənməsinə imkan verdiyini vurğulayıb.

İclasda qeyd olunub ki, pensiya və müavinətlərlə bağlı qanunvericilikdə olduğu kimi, işsizlikdən sığorta və ünvanlı yardımla bağlı normativ hüquqi aktlarda da həssas qrupların bu sosial dəstək proqramlarına əlçatanlığının artırılması üçün son iki ildə humanist yanaşmalar əsasında bir sıra dəyişikliklər aparılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, işsizlikdən sığorta ödənişlərinin təyinatı şərtləri növbəti dəfə yumşaldılıb. Bu ödənişlərin əhatə dairəsinə müddətli müqavilənin bitməsi ilə bağlı əmək müqaviləsinə xitam verilənlər də daxil edilib. Həmin ödənişlərin təyinatı üçün 3 il sığorta stajı tələbi 1 ilə endirilib, sığorta ödənişinin təyinatı üçün 3 ay gözləmə müddəti, sığorta təyinatı ilə bağlı 30-a yaxın sənədin təqdim edilməsi tələbi ləğv edilib. Bu ödənişlərin təyinatı avtomatlaşdırılıb, orta aylıq əməkhaqqı barədə məlumatların elektron qaydada əldə edilməsi imkanı yaradılıb.

Ünvanlı dövlət sosial yardımı üçün müraciətə baxılan zaman kreditin gəlir kimi nəzərə alınması ləğv edilib. Ailənin adambaşına düşən kommunal və rabitə xərclərinin cəminin orta aylıq məbləğinin ölkə üzrə təsdiq olunmuş yaşayış minimumuna nisbəti artırılaraq 10 faizdən 15 faizə çatdırılıb. Yardım təyinatından sonra ailə tərkibində dəyişiklik nəzərə alınmadan artıq yalnız ailənin gəlirlərdə baş vermiş dəyişiklik nəzərə alınır.

Həmin gəlirlərdə olan dəyişikliklərlə bağlı məlumatverilmə müddəti isə 5 iş günündən 15 iş gününədək uzadılıb. "Ünvanlı yardım" altsisteminin yeni, sadələşdirilmiş versiyası istifadəyə verilməklə, 10 istiqamət üzrə gəlir və statuslar vətəndaşlar tərəfindən deyil, müvafiq elektron sistemlərdən əldə edilir.

İclasda işsiz və işaxtaranlar, digər həssas qruplarla bağlı icra edilən sosial dəstək proqramlarının genişləndirilməsi üçün görülən işlər və bu istiqamətdə yeni təkliflər müzakirə edilib.

## Bu ilin birinci rübündə qeydə alınmış 8622 cinayətin 86 faizinin açılması təmin olunub

Aprelin 19-da Daxili İşlər Nazirliyində (DİN) mülkiyyət əleyhinə olan və əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilən cinayətlərin, həmçinin xırda talamaların qarşısının alınması və açılması, mühafizə-siqnalizasiya vasitələrinin tətbiqi sahəsində fəaliyyətin nəticələrinə həsr olunmuş onlayn formatda kollegiya iclası keçirilib.





DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclasda çıxış edən daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin vətəndaş məmnunluğunun təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi baxımından aktual olduğunu və həmin istiqamətlərdə həyata keçirilən tədbirlərin müasir dövrün tələbləri nəzərə alınmaqla təkmilləşdirilməsinin və daha da gücləndirilməsinin vacibliyini vurğulayıb.

Bu ilin birinci rübündə əməliyyat-xidməti fəaliyyətin nəticələrini müsbət dəyərləndirən nazir V.Eyvazov bildirib ki, bu müddətdə qeydə alınmış 8622 cinayətin 86 faizinin açılması təmin olunub, qeyri-aşkar şəraitdə baş verən cinayətlərin, mülkiyyət əleyhinə olanların, o cümlədən oğurluqların, soyğunçuluqların, quldurluqların, hədə-qorxu ilə tələb etmələrin, avtonəqliyyat vasitəsini qaçırmaların açılması ötən ilin müvafiq dövrü ilə müqayisədə yaxşılaşıb. Qanunsuz dövriyyədən 1 ton 64 kiloqram narkotik vasitə çıxarıldığını qeyd edən nazir bu əməllərlə bağlı 1689 nəfərin məsuliyyətə cəlb edildiyini, habelə axtarış işinin, o cümlədən ağır və xüsusilə ağır cinayətlərə görə axtarılan şəxslərin tutulmasının nəticələrinin yüksəldiyini, 556 nəfərdən ibarət 220 cinayətkar qrupun zərərsizləşdirildiyini diqqətə çatdırıb.

Gündəlikdəki məsələlərlə bağlı nazir müavini, Baş Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis general-leytenantı Fazil Quliyev, Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Baş Mühafizə İdarəsinin rəisi, polis general-mayoru Nurulla Məmmədxanlı, Katibliyin rəisi, polis polkovniki Nahid Məmmədzadə və Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki Vüqar Ələkbərov məruzə ediblər.

Müzakirə olunan məsələlər ətrafında bır sıra ərazi polis orqanlarının rəisləri çıxış edərək görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə məlumat veriblər.

Kollegiya iclasına yekun vuran nazir, general-polkovnik V.Eyvazov qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulmuş tapşırıqların cari ilin birinci rübündə də layiqincə yerinə yetirildiyini, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində əldə olunmuş müsbət nəticələrin inkişaf etdirildiyini diqqətə çatdıraraq xidməti fəaliyyətin səmərəliliyinin artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Eyni zamanda, vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifələrdən olduğunu xatırladan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib. Həmçinin xidməti fəaliyyətdə müasir texnologiyaların tətbiqinin və idarəetmədə elektronlaşdırmanın genişləndirilməsinin zəruriliyini, hüquqi və fiziki şəxslərə məxsus obyektlərin, mənzillərin mühafizə-siqnalizasiya vasitələri ilə təmin edilməsinin, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərinin gücləndirilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin səlahiyyətinə aid vəzifələrin peşəkarlıqla yerinə yetirilməsinin vacibliyini diqqətə çatdıraraq bir sıra konkret tapşırıqlar verib.

Nazir, general-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da qanunvericiliklə müəyyən edilmiş funksiyaları layiqincə həyata keçirəcək, ölkədə sabitliyin, əmin-amanlığın davamlılığının təmin edilməsi üçün qüvvə və bacarığını əsirgəməyəcək.

## Azərbaycanın müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerə başsağlığı ünvanlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, başsağlığında deyilir: "Qardaş Türkiyə Silahlı Qüvvələri tərəfindən "Pənçə Kilit" əməliyyatının aparıldığı bölgədə şanlı türk ordusunun hərbi qulluqçusunun şəhid olması xəbəri məni dərindən kədərləndirdi. Sizin acınız bizim də acımızdır. Terrora qarşı aparılan kəskin mübarizədə daim qardaş Türkiyə Silahlı Qüvvələrinin yanındayıq və Sizi var gücümüzlə dəstəkləyirik. Şəhid olan hərbi qulluqçuya rəhmət diləyir, onun yaxınlarının dərdlərinə şərik olur, ailəsinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin".

## Qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması layihəsi davam edir



**Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının (AQSİA) və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin bölgələrdə yaşayan qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması layihəsi uğurla davam edir.**

AQSİA-dan bildirilib ki, "Aran iqtisadi rayonunda yaşayan qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması" adlı layihə çərçivəsində Saatlı və Sabirabadda qadınlarla ilkin görüş və sorğular başa çatıb.

*AZƏRTAC*

Dünya gündəmi

# "Nə Le Pen, nə də Makron!"

## Fransada prezidentliyə hər iki namizədə qarşı etiraz aksiyalarını polis kütləvi zorakılıqla yatırdır





Fransada keçiriləcək prezident seçkilərinin ikinci turu ərəfəsində dövlət başçısı vəzifəsinə namizədlərə qarşı kütləvi etiraz aksiyaları keçirilir.

Haradasa mitinq və nümayişlərin iştirakçıları ölkənin hazırkı lideri Emmanuel Makrona qarşı, digər yerlədə onun rəqibi - ifrat sağçı siyasətçi Marin Le Penə qarşı, bəzi hallarda isə "Nə Le Pen, nə də Makron!" şüarları səsləndirir və plakatlar aparırlar.

Aksiyalar əsasən dinc xarakter daşıyıb, lakin bir neçə şəhərdə polislə toqquşmalar və dağıntılar baş verib. Belə ki, Parisdə gənclər hərəkatından olan radikallar zibil qutularını yandırıb və asayiş keşikçilərinə daş, şüşə atıblar. Buna cavab olaraq polis rezin dəyənəklər və gözyaşardıcı qazdan istifadə edib. Nəticədə hər iki tərəfdən onlarca zərərçəkən var.

Prezidentliyə namizədlər Marin Le Pen və Emmanuel Makron özlərinə qarşı keçirilən aksiyaları tənqid etmiş, bunu demokratiya prinsiplərinin pozulması adlandırmışlar.

### Debatlar həlledici məqam olacaq

Fransada prezident seçkisinin ikinci turuna sayılı günlər qalıb. Hər iki namizəd - respublikanın hazırkı Prezidenti və ifrat sağçı "Milli birlik" Partiyasının rəhbəri finiş xəttinə çıxıblar və bu gün axşama planlaşdırılmış yeganə debata hazırlaşırlar.

Son məlumata görə, bazar günü Emmanuel Makrona seçicilərin 53-55,5 faizi səs verməyə hazırdır, halbuki Marin Le Peni 44,5 faizdən 47 faizə qədər seçici dəstəkləmək niyyətindədir. Xatırladaq ki, birinci turda Makron 27,8 faiz, Le Pen isə 23,1 faiz səs qazanıblar.

Le Pen iddia edir ki, beş il bundan əvvəl Emmanuel Makron ilə təkbətək görüşdən nəticə çıxarıb və debatlara hazırdır. "Əgər debatlar iki proqramı müqayisə etməyə imkan versə, Emmanuel Makronun bu postda qalmasına yekun vurarsa, onlar seçkiqabağı kampaniyanın həlledici məqamı olacaq", - deyə o, KİV-ə müsahibəsində bildirib.

Problem siyahısında birinci yerdə fransız seçiciləri alıcılıq qabiliyyətinin azaldığını qeyd edirlər, bundan sonra çoxları namizədlərdən eşitmək istərdilər ki, iqlim dəyişikliyinə son qoymaq üçün onlar hansı konkret tədbirlər görmək niyyətindədirlər.

"Mən heç vaxt iqlimlə bağlı skeptik olmamışam, proqramımda ətraf mühitin və ekologiyanın qorunmasına da yer verilir", - deyə Marin Le Pen bildirib.

Marseldə iki tur arasında keçirilən ilk seçkiqabağı mitinqdə Emmanuel Makron ekologiya və iqlim dəyişikliyi problemindən çox danışmış, müşahidəçilərin vurğuladıqları kimi, sol elektoratı öz tərəfinə cəlb etməyə çalışmışdı. O, mitinq iştirakçılarına bu fikirlər çatdırmışdı: "Biz biomüxtəlifliyi qorumağa müvəffəq olduq və beş il ərzində atmosferə karbon qazının tullantılarını 12 faiz azaltdıq, biz bu məsələlər üzrə əvvəlki iki prezidentdən çox irəliləməyə müvəffəq olduq".

Qeyd edək ki, "Sükut günü"nə qədər namizədlərdən hər biri iki seçkiqabağı mitinq keçirəcək.

### Melanşonun seçiciləri kimi dəstəkləyir?

İlk turda III yeri tutan Jan-Lük Melanşona səs vermiş seçicilərin yalnız üçdəbiri Emmanuel Makrona səs verməyə hazırdır. "Figaro" qəzetinin yazdığına görə, buna "La France insoumise" təşkilatı tərəfindən aparılmış sorğunun nəticələri dəlalət edir.

Rəqəmsal sorğuda ilk turda Melanşona səs verən 215 minə yaxın insan iştirak edib. Onların 37,65 faizi ikinci mərhələdə səsverməyə getməyə, lakin hər iki namizədə dəstək verməkdən imtina etməyə üstünlük verirlər. Digər üçdəbir hissə isə - 33,4 faiz Emmanuel Makrona səs verməyə hazırdır. Melanşonun seçicilərinin təxminən 29 faizi ikinci turda iştirak etmək niyyətində deyil.

Xatırladaq ki, Jan Lük Melanşon birinci turda 22 faiz səs qazanıb və ikinci tura keçən Marin Le Pendən minimum səslə geridə qalıb.

Məhz buna görə onun pərəstişkarlarının mövqeyi ikinci turda həlledici ola bilər. Bu zaman digər prezidentliyə namizədlərdən fərqli olaraq, Melanşonun özü ikinci turda kimisə birbaşa dəstəkləməyib. Bununla yanaşı, o, dəfələrlə pərəstişkarlarını "Marin Le Penə səs verməməyə" çağırıb. Fransada prezident seçkisinin həlledici ikinci turu aprelin 24-də keçiriləcək.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Ədəbiyyat İnstitutu Şuşada

**Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 50-yə yaxın əməkdaşı Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərinə səfər edib.**




İnstitutun baş direktoru akademik İsa Həbibbəylinin təşəbbüsü ilə həyata keçirilən bu səfərin əsas məqsədi 44 günlük Vətən savaşında Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Müzəffər Azərbaycan Ordusunun qazandığı şanlı zəfər nəticəsində işğaldan azad olunan doğma Şuşa şəhərini görmək arzusunu institut əməkdaşları üçün gerçəkləşdirməkdir.

Təsadüfi deyil ki, Şuşa Azərbaycan ədəbiyyatının yarandığı ən mühüm mərkəzlərdən biridir. Burada görkəmli şair və yazıçılarımızdan Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Süleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyli, Əhməd bəy Ağaoğlu, Ceyhun bəy Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli və adlarını sadalamaqla bitməyən neçə-neçə dahilərimiz yaşayıb yaratmışlar. Hər bir Azərbaycan vətəndaşının, o cümlədən ədəbiyyatşünasların otuz il arzusunda olduğu Şuşanı gedib görmək istəyini nəzərə alaraq Ədəbiyyat İnstitutu qurumun həmkarlar təşkilatının dəstəyi ilə mədəniyyət paytaxtına səfər təşkil edib.

Şuşa ziyarəti dövlətimizin Şuşaya vətəndaş səfərləri çərçivəsində yaratdığı imkanlardan faydalanmaqla həyata keçirilib. Səfər zamanı institut əməkdaşları proqram üzrə Xurşidbanu Natəvanın evi və bulağı, Şuşa qalası, Mərkəzi meydandakı Üzeyir bəy Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün heykəlləri, Bülbülün ev-muzeyi, Cıdır düzü və Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini ziyarət ediblər.

Prezident İlham Əliyev görkəmli şairimiz Xurşidbanu Natəvanın anadan olmasının 190 illik yubileyinin qeyd olunması məqsədilə 14 mart 2022-ci il tarixli sərəncam imzalayıb. Sərəncama uyğun olaraq, səfər çərçivəsində Şuşanın mərkəzində yerləşən Xurşidbanu Natəvanın heykəli önündə görkəmli şairə həsr olunmuş "Xan qızı Xurşidbanu Natəvan" adlı elmi sessiya keçirilib. Sessiyada institutun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli, Natəvan irsinin tədqiqatçısı, professor İslam Qəribli, filologiya elmləri doktoru Mahirə Quliyeva, institutun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı, filologiya üzrə fəlsəfə doktoru, dosent Fəridə Hicran çıxış edərək Şuşa ziyarəti və Xurşidbanu Natəvanın həyatı və yaradıcılığı haqqında danışıblar.

Şuşa səfəri Ədəbiyyat İnstitutunun əməkdaşlarında zəngin təəssürat yaradıb. Bu təəssüratların gələcək elmi tədqiqatlar üçün stimul verəcəyi şübhəsizdir.

*Aydan XƏLİLOVA, "Azərbaycan"*

# Şuşada Azərbaycan və Özbəkistan şairlərinin şeir məclisi keçirilib

28 ildən sonra Ermənistan işğalından azad olunan Azərbaycan mədəniyyətinin paytaxtı Şuşada Azərbaycan və Özbəkistan şairlərinin iştirakı ilə "Məclisi Fəramuşan" şairlər məclisinin rəsmi açılışı olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan şairləri, Qarabağ ədəbi məktəbinin tanınmış nümayəndələri Molla Pənah Vaqifin məqbərəsini ziyarət edib, şairin, habelə Xurşidbanu Natəvanın büstlərinin qarşısına gül-çiçək dəstələri qoyublar.

Tədbiri giriş sözü ilə açan Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov iki əsrdən sonra türk dünyasının böyük elm, mədəniyyət, ədəbiyyat, poeziya mərkəzi sayılan Azərbaycan və Özbəkistan arasında bərpa olunan "Məclisi Fəramuşan" poeziya məclisi layihəsi haqqında məlumat verib, Özbəkistandakı Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü və Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən tədbirin əhəmiyyəti barədə danışıb. Samir Abbasov hər iki ölkənin mədəniyyət, ədəbiyyat nümayəndələrinin tarixi Şuşa şəhərində bir araya gəlməsi, dünyaya böyük mədəniyyətimiz, sənətimiz, qardaşlığımız və birliyimizi göstərmək və ədəbiyyat sahəsində gözəl əməkdaşlıq platformasını ortaya qoymasını mühüm amil və təqdirəlayiq hal kimi dəyərləndirib. Diplomat Prezident İlham Əliyev tərəfindən 2022-ci ilin "Şuşa ili" elan olunduğunu və bu məqsədlə çoxsaylı layihələrin həyata keçirildiyini bildirib.

Azərbaycan Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli Ermənistanın işğalından azad olunan Şuşamızın mədəni həyatının get-gedə canlandığını, azad olunan Şuşaya yenidən mədəniyyətimizin qayıtdığını qeyd edib. Prezident İlham Əliyev tərəfindən Şuşanın Azərbaycan mədəniyyətinin paytaxtı elan olunduğunu qeyd edən A.Marifli 2023-cü ili TÜRKSOY tərəfindən Şuşanın türk mədəniyyətinin paytaxtı elan olunduğunu, türk dünyasının qəlbinin Şuşada döyünəcəyini söyləyib.

Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq məsələlər üzrə katibi Səlim Babullaoğlu ədəbiyyatımızın dünyada tanıdılması ilə bağlı görülən işlərdən danışıb, ədəbiyyatın hər zaman türk dünyasının mədəni həyatında rolunun mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib. S.Babullaoğlu keçirilən bu beynəlxalq tədbirin şairlərimiz arasında ədəbi əlaqələrin genişlənməsi, təcrübə mübadiləsinin aparılması, birliyimiz və həmrəyliyimiz üçün gözəl imkanlar açdığını söyləyib.

Özbəkistan Yazıçılar Birliyinin sədr müavini şair Qayrat Macid xalqlarımız, dövlətlərimiz arasında yüksəksəviyyəli münasibətlər, dövlət başçılarımızın uğurlu siyasəti nəticəsində dostluq və qardaşlığımızın daha da möhkəmləndiyini bildirib. O, Qarabağın, Şuşanın hər guşəsində, daşında türk mədəniyyətinin nişanələrinin göründüyünü, Şuşanın həqiqətən də zəngin mədəniyyətə, sənətə, ədəbiyyata malik olduğunu qeyd edib. Şuşada Azərbaycan xalqının zəngin mədəniyyət yaratdığını vurğulayan Qayrat Macid bildirib ki, 2023-cü il türk dünyası üçün əhəmiyyətli olacaq, hər bir insanımız mədəniyyət paytaxtı, sənət məbədi olan Şuşaya həsr olunmuş tədbirlərin şahidi olacaqdır.

# Ermənistanda müxalifət vətəndaş itaətsizliyinə başlayır






İrəvanda müxalif "Şərəfim var" parlament fraksiyasının təşkilatçılığı ilə baş nazir Nikol Paşinyanın əleyhinə keçirilən etiraz aksiyaları davam edir.

Geniş əhali kütləsi tərəfindən başlanan mitinqlər fonunda getdikcə dramatikləşən hadisələr hakimiyyətin mövqeyini əhəmiyyətli dərəcədə zəiflətməkdədir. Buna rəğmən Paşinyan hakimiyyəti qarşı tərəfə daha sərt formada müqavimət göstərmək qərarına gəlib. Elə bu fonda vəziyyət daha da gərginləşməkdə, daxili savaş ehtimalı daha sürətlə yüksəlməkdədir.

İrəvanın mərkəzində baş nazir Nikol Paşinyanın istefasını tələb edən etirazçılarla polis arasında yenidən qarşıdurma yaşanıb. Polis Opera teatrının yaxınlığında Fransa meydanında mitinq keçirilməsinə icazə verməyib. Böyük kütlə İrəvanın Azadlıq meydanından baş nazirin iqamətgahına yürüşə cəhd edib. Amma polis yolları bağlayaraq aksiyaçıları meydana buraxmayıb. Hökumət evinə yön alan aksiyaçılar orada toplaşaraq "Paşinyan, get!", "Müstəqil Ermənistan", "Ermənilər, birləşin!" şüarları səsləndirib. Mitinqlərdə ictimai-siyasi şəxslər, fəallar, vəkillər və başqaları iştirak edib.

Başqa bir məlumata görə, müxalifət düşərgəsində həbslərin aparılması planlaşdırılır və qeyd olunur ki, kütləvi etiraz aksiyalarının qarşısını almaq üçün hakimiyyət xüsusi plan hazırlayıb. Buraya müxalifət fəallarına qarşı güc tətbiq edilməsindən tutmuş onların mitinq keçiriləcək ünvana daxil olmazdan əvvəl müvəqqəti həbsinə kimi müxtəlif planlar daxildir. O da vurğulanır ki, bu prosesdə təkcə polis yox, digər güc strukturlarının və hakimiyyətin nəzarətində olan xüsusi cəza dəstələrinin nümayəndələri də iştirak edəcəklər.

Müxalifət isə hakimiyyət tərəfindən yaradılacaq bütün maneələrə rəğmən etiraz mitinqlərinin baş nazirin istefasına qədər davam edəcəyini bildirib. Belə ki, parlament müxalifəti gələn həftə hakimiyyətə qarşı küçə mübarizəsinə başlayacağını bəyan edib. "Qraparak" nəşri yazır ki, onlar İrəvanda və bölgələrdə itaətsizlik aksiyaları keçirmək məsələsini müzakirə edir, tətil təklifi irəli sürürlər: "Müxalifət bütün qüvvələrini birləşdirməyə qərar verib. Ötən gün parlamentdə iki fraksiya rəhbəri nə edəcəyini müzakirə edib, aksiyaların bu həftəsonu başlayacağı ilə bağlı fikirlər səsləndirilib, lakin erməni apostol kilsəsi Pasxa bayramını qeyd etdiyi üçün aksiyaları bir neçə gün təxirə salmaq qərarına gəlib".

Göründüyü kimi, yaranan durumdan maksimum yararlanmağa çalışan müxalifətin də daxilində parçalanma var. Hakimiyyət dəyişikliyinin mütləq olduğunu deyən bir qrup müxalif Qərblə əməkdaşlığın, digər qrup isə Rusiya



ilə işləməyin tərəfdarıdır. Qərbyönümlü müxalifət son mitinqlərində bəyan edib ki, hakimiyyətinin sonuna az qalıb və demək olar, son günlərini yaşayır. Rusiyayönümlü müxalifətin siyasi ritorikasında isə dövlətçilik, övladlarının təhlükəsizliyi və ölkənin gələcəyi ön plana çəkilir.

Bu arada dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənlik və çətinliklərin digər ölkələrlə müqayisədə Ermənistana daha çox dağıdıcı təsir göstərdiyi qeyd edilir. Xüsusən də Rusiyada rublun məzənnəsinin aşağı düşməsi Ermənistan iqtisadiyyatı üçün böyük fəlakət sayılır. Əvvəlki illərlə müqayisədə 2021-ci ildə Ermənistanda xüsusilə ərzaq məhsullarının qiymətlərində 11,5 faiz artım qeydə alınıb. İnflyasiya ilə yanaşı, insanların gəlirləri də mütənasib şəkildə artmayıb və bu, erməni əhalisini daha da yoxsullaşdırıb. Ötən ilin inflyasiyasını təkcə dünya bazarı deyil, həm də daxili amillər şərtləndirib. Ermənistan hökuməti kənd təsərrüfatı istehsalı və emalı kreditləri üzrə faiz dərəcələrinin subsidiyalaşdırılması üçün milyardlarla dram ayırsa da, 2021-ci ildə aqrar sektorda xeyli azalma müşahidə olunub.

Ermənistan Statistika Komitəsinin açıqladığı məlumatlara görə, bu ilin yanvar-fevral aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə Ermənistanda malların qiymətləri 6,8 faiz artıb. Ərzaq qiymətlərinin 11,8 faiz artması xüsusilə ermənilər arasında narahatlıq doğurur. "İravnuk" qəzeti yazır ki, 2022-ci ilin fevral ayında əvvəlki ilin fevral ayına nisbətən çörəyin və dənli bitkilərin qiymətləri 10,1 faiz, ətin 9,6 faiz, kərə yağının 7,8 faiz, şəkərin 18,2 faiz, pendirin 17,2 faiz, tərəvəzin qiymətləri 31,1 faiz bahalaşıb: "Hələ Rusiya-Ukrayna münaqişəsindən əvvəl ərzaq almaq problemi daha da kəskinləşmişdi. 2022-ci il martın 15-dən avqustun 31-dək Rusiya Federasiyasından buğda, şəkər, yağ, qarğıdalı və digər zəruri məhsulların ixracına qadağa qoyulması planlaşdırılır. Odur ki, 2022-ci il Ermənistanın iqtisadiyyatı, yəni əhalisi üçün ciddi çağırışlar ili olacaq".

Göründüyü kimi, Paşinyanı devirmək istəyən müxalifətin ən böyük arqumentlərindən biri də sosial-iqtisadi tənəzzüldür. Müharibədə məğlubiyyətdən sonra Ermənistanda bu problem etirazların fonunda xüsusilə qabardılır, gündəmə gətirilir. Ölkə hərtərəfli böhran yaşayır. Qarşıdakı dövrdə Ermənistanı daha acınacaqlı günlər gözləyir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# Sürücü məsuliyyətsizliyi, yoxsa piyada laqeydliyi



## Yol-hərəkət qəzalarının artan statistikası narahatlıq doğurur

Hər il dünyada orta hesabla 1,3 milyon insan yol qəzaları nəticəsində dünyasını dəyişir. Başqa sözlə, son illərin müharibələrindən daha çox qurban... Qəzaların əksəriyyəti yol hərəkəti iştirakçılarının səhvi, diqqətsizliyi və təcrübəsizliyi kimi amillərdən qaynaqlanır.

Azərbaycanda bunun qarşısının alınması, qəzaların sayının azalması üçün tədbirlər görülür, maarifləndirici işlər aparılır, sosial proqramlar həyata keçirilir. Qeyd edək ki, sürətli sosial-iqtisadi inkişafın nəticəsi olaraq son illərdə respublikamızda avtomobil yolları şəbəkəsi genişləndirilib və yol infrastrukturu yenilənib, daha da təkmilləşdirilib. Bircə faktı demək kifayətdir ki, Azərbaycanda 2003-2021-ci illər ərzində yol infrastrukturu keyfiyyət reytinqində MDB dövlətləri arasında birinci, dünyanın 140 ölkəsi arasında isə 27-ci yerdə qərarlaşıb. Bu illər ərzində təkcə Bakı şəhərində 2010.5 km uzunluğunda yol tikilib, yenidən qurulub və təmir edilib. Respublika ərazisində isə bu müddətdə 19.2 min kilometr uzunluğunda yol çəkilib və bərpa edilib. O cümlədən müasir standartlara cavab verən yeraltı və yerüstü piyada keçidlərinin qurulmasına xüsusi diqqət ayrılır. Bu, bir tərəfdən insanlarımızın sosial rifahına, rahatlığına, iqtisadi yüksəlişə, digər tərəfdən hərəkətin təhlükəsizliyinə xidmət edir.

2022-ci ilin ötən dövrünün statistikasına nəzər yetirdikdə görürük ki, yol-nəqliyyat hadisələri zamanı xəsarət alanların və həyatını itirənlərin sayı xeyli artıb. Konkret faktlarla desək, 2022-ci ilin ilk rübündə respublika ərazisində ölüm və xəsarətlə nəticələnən 403 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Nəticədə 183 nəfər həlak olub, 373 nəfər xəsarət alıb. Əvvəlki ilin müvafiq dövrünün statistikasına nəzər yetirdikdə görürük ki, ölənlərin sayı 46.4 faiz, yaralananların sayı isə 0.8 faiz artıb. Yol qəzalarında həlak olanlardan 83-ü piyada, 46-sı sürücü, 53-ü sərnişin, 1-i isə digər hərəkət iştirakçısıdır.

Etiraf edək ki, yol-nəqliyyat hadisələrinin artmasının başlıca səbəbi və günahkarı yol hərəkəti iştirakçılarıdır. Təcrübəsiz şəxsin sükan arxasına keçməsi, yol və hava şəraitinə uyğun tədbir görülməməsi, ehtiyatsızlıq, avtomobili sərxoş vəziyyətdə idarə etmək, hərəkət zamanı sürət həddini aşmaq, yol-hərəkəti qaydalarına əməl etməmək, piyadaları yol haqqından məhrum etmək və s. baş verən qəzaların əsas səbəbləridir. Lakin qəzalar zamanı piyadaların da günahı az olmur. Yol hərəkəti qaydalarına əməl etməmək, qırmızı işıqda keçmək, nəqliyyat vasitəsinin qəfildən qarşısına və ya arxasından çıxmaq, piyada keçidlərinə etinasızlıq kimi hallar qəzaların baş verməsinə səbəb olur. Ömrünü başa vurmuş, texniki cəhətdən nasaz, heç bir göstəricisinə görə müasir tələblərə cavab verməyən avtomobillər də yol qəzalarına səbəb olur, onların ucbatından yolda yaranan problemlər digər hərəkət iştirakçılarının həyatını təhlükəyə atır.

Ciddi problemlərə yol açan bu kimi halların qarşısını almaq üçün daha hansı tədbirlər görülməli, nələr edilməlidir?

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov bununla bağlı sualımızı cavablandıraraq bildirdi ki, Azərbaycanda baş verən nəqliyyat qəzalarının daha da artmasının bir neçə səbəbi var. Bunlardan ən əsası yol hərəkəti iştirakçılarının məsuliyyətsizliyidir. İlk növbədə, sürücü və ya piyadalar yol-hərəkəti qaydalarını pozduqları üçün bu qəzalar baş verir. Bəzən yollarda yaranmış çala-çuxurlar, yolların normal işıqlandırılmaması da qəzalara gətirib çıxarır. Avtomobillərin qarşı zolağa çıxması, ötmə qaydalarının pozulması, sürət həddinin keçilməsi, diqqətsizlik - bunlar hamısı ümumilikdə yol qəzalarının baş verməsinə səbəb olur. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, bu qəzaların əksəriyyəti şəhərdaxili və ya məntəqədaxili ərazilərdə, yüksək sürətə icazə verilməyən yerlərdə baş verir. Bu da qeyd etdiyimiz həmin o səbəblərin doğru olduğunu isbatlayır.

E.Cəfərovun sözlərinə görə, 2021-ci ildə Azərbaycanda 1649 qəza baş verib. Bu, 2020-ci illə müqayisədə 3.9 faiz çoxdur. "Bu çox ciddi rəqəmlərdir. Halbuki biz ilbəil ölkəmizdə yol qəzalarının sayının azaldılmasına nail olmalıyıq, qəzalar zamanı ölüm halları və xəsarətlərin sayının azalması istiqamətində müəyyən proqramlar qəbul etmişik. Elə ən əsası da Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"dır. Yüksək səviyyədə dövlət qayğısı var, milyonlarla manat vəsait, insan qüvvəsi, müvafiq qurumların ciddi səyləri səfərbər olunur, amma təəssüf ki, qəzaların sayı azalmır. Yol qəzaları həm maddi, həm də mənəvi itkidir. Neçə-neçə insanın, ailənin bədbəxtliyinə səbəb olan, neçəsini şikəst, əlil edən yol qəzaları digər tərəfdən də iqtisadiyyata külli-miqdarda ziyan vurur. Qəribə bir məntiqi nəticə meydana çıxır. Xərclənən vəsait artır, yol infrastrukturu günbəgün inkişaf edir, yollar yenilənir, daha rahat və daha da çox olur, qəzalar isə azalmır ki, azalmır".

Yol-hərəkət hadisələrinin artmasının səbəbi sürücü məsuliyyətsizliyidir, yoxsa piyada laqeydliyi? Əslində səbəb hər ikisidir. Hər bir yol hərəkəti iştirakçısı müvafiq qaydalara riayət etməli, düzgün maarifləndirilməlidir. Məsuliyyət hər birimizin üzərindədir.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Dünya azərbaycanlıları Şuşada zəfər tonqalı qalayacaq

## Həmvətənlərimiz V qurultayı mədəniyyət paytaxtımızda keçirəcəklər

"Qoy çaylarımız qurumasın! Qoy ağaclarımız kəsilməsin! Qoy çırağımız sönməsin!"

2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının I Qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev nitqini Yer üzündəki bütün azərbaycanlılara ünvanlanan bu xoş arzularla, diləklərlə bitirmişdi...

Milli həmrəyliyimizin nümayişinin zirvələrindən biri olan bu möhtəşəm qurultayda Ümummilli Lider nitqində dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin respublikamızla əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması və elə bu milli birlik sayəsində xalqımızın Qarabağ kimi ağır probleminin qurtuluşuna işarə vurmuşdu...

Ulu Öndər xüsusilə vurğulamışdı ki, bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik".

Qurultayda Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, xüsusilə də Ermənistanın təcavüzkarlıq siyasətinin ifşası, bədnam erməni lobbisinə qarşı sistemli və ardıcıl əks-hücumun təşkili məsələləri başlıca vəzifə olaraq qarşıya qoyulmuşdu.

### Dünya azərbaycanlılarının ürəyi bir olub, yalnız Qarabağ üçün döyündü

Dünya azərbaycanlılarının ilk tarixi qurultayının üzərindən ötən zaman və 44 günlük Vətən müharibəsi də sübut etdi ki, Ümummilli Liderin azərbaycançılıq ideyası xalqımızı həmrəy edən böyük qüvvədir.

Azərbaycanın parlaq zəfəri ilə bitən Vətən müharibəsində dünya azərbaycanlıları bir amal ətrafında tarixin heç bir dönəmində olmadığı kimi həmrəy oldu. Harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlılar birləşərək Vətən müharibəsinin qalibiyyətlə bitməsi üçün əllərindən gələn hər şeyi etməyə, dövlətimizə, ordumuza, əsgərimizə, ümumilikdə qələbəmizə töhfə verməyə çalışdılar. Xüsusilə beynəlxalq aləmə səsimizi çatdırmaq, informasiya müharibəsində savaşmaq üçün gecə-gündüz mübarizəyə atıldılar. Xalqımızın milli həmrəyliyinin təntənəsi olan 44 günlük Vətən müharibəsində diaspor təşkilatlarımızın dünyanın 30-dan çox ölkəsində keçirdikləri 200-dək aksi-




yada 25 mindən çox soydaşımız və dost xalqların nümayəndələri iştirak etdilər. Eyni zamanda müharibə günlərində 300-ə yaxın diaspor təşkilatı müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərmişdilər.

Bəli, 44 günlük savaş dönəmində bütün dünya azərbaycanlılarının ürəyi bir olub, yalnız Qarabağ üçün döyündü.

### Gücümüz birliyimizdədir

Elə milli birlikdən, həmrəylikdən doğan bu güc-qüvvə sayəsində də Azərbaycan işğalçı Ermənistan üzərində qələbə çaldı. Qarabağımızın baş tacı Şuşanı azad edərək, düşməni kapitulyasiya bəyanatına imza atmağa məcbur etdi.

"Azərbaycan tarixdə heç vaxt belə parlaq zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində "dəmir yumruq"la düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il dekabrın 23-də işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olarkən bütün dünyaya bəyan etdiyi kimi, məhz birliyimiz və əzmimizlə, qətiyyətimizlə dədə-baba yurdumuz Qarabağ azadlığa qovuşdurduq.

Sentyabrın 27-dən noyabrın 10-na qədər olan 44 günlük bir zaman kəsiyini əhatə edən Vətən sınağından birgəliyimiz sayəsində üzüağ, şərəflə çıxdıq.

### Çaylarımız zümzümə ilə çağlayır, yurdlarımızın çırağı yanır

İndi artıq Ulu Öndər Heydər Əliyevin arzularının şah taxtında yer edən diləklərı də çin olub. Artıq torpaqlarımızın düşmən tərəfindən qurudulan çayları da, bulaqları da xoş zümzümə ilə çağlayır, qırılan meşələrimiz sıx pöhrələyir, illərdir yasa qərq olan yurdlarımızın çırağı şölələnir.

Vətən müharibəsində qazandığımız şanlı zəfər Qarabağda tarixi ənənələrimizin və mədəni tədbirlərimizin də bərpasına yol açıb. Bu gün işğaldan azad olunan torpaqlarımız quruculuq meydanına, Şuşa isə mədəniyyətimizin mərkəzinə çevrilib. Günü-gündən dirçələn, əvvəlki tarixi şöhrətinə qovuşan, mədəniyyət ənənələrini bərpa edən qürur qalamız Şuşadan dünyaya sülh mesajları verilir. Artıq ötən il mədəniyyət paytaxtımızda "Xarıbülbül" Musiqi Festivalı, "Vaqif Poeziya Günləri" keçirilib. Azərbaycan Milli Məclisinin "Şuşa ilinə" töhfəsi olaraq Şuşada parlamentin komitə iclaslarının keçirilməsinə başlanılıb. 2023-cü ildə isə ümumilikdə türk dünyasının qürur mənbəyi olan Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" olacaq.

### Qürur ünvanında fəxarətli görüş

İki gün sonra Dünya Azərbaycanlılarının V Qurultayı Azərbaycanın mədəniyyət paytaxtında keçiriləcək. Qurultayda 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı gözlənilir.

Dünya Azərbaycanlılarının ilk qurultayı 2001-ci il noyabrın 9-10-da, ikinci qurultayı 2006-cı il martın 16-da, üçüncü qurultayı 2011-ci il iyulun 5-6-da, dördüncü qurultayı 2016-cı il iyunun 3-4-də keçirilib.

Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideyasını inkişaf etdirən diaspor təşkilatlarımız Prezident İlham Əliyevin dəqiq müəyyənləşdirdiyi plan və istiqamətlər üzrə də uğurla inkişaf edərək, bu gün tarixindəki ən güclü səviyyəsinə yüksəlib.

Vətən müharibəsində yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətə Azərbaycan həqiqətlərinin çatdırılmasında uğurlu fəaliyyət göstərən diasporumuzun Qarabağın azad olunmasından sonra ilk böyük görüşünün qürur ünvanımız Şuşada keçirilməsinin və qurultay keçirməsinin özünün böyük rəmzi mənası və tarixi dəyəri var.

Həmvətənlərimiz də parlaq zəfərimizdən doğan fərəh hissi və azad torpaqlarımıza qürurla ayaq basmağın xoşbəxtliyini yaşayacaq.

Necə ki, Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində də bu məqamı xüsusi vurğulamışdı: "Bu gün əminəm ki, dünya azərbaycanlıları yaşadıqları bütün ölkələrdə başı dik, alnıaçıq, üzüağ gəzirlər və öz tarixi vətəni olan Azərbaycanla haqlı olaraq fəxr edirlər..."

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

---

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# "AzerGold" QSC istehsalat proseslərini optimallaşdırıb

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) mineral-xammal resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi və istehsalat proseslərinin optimallaşdırılması istiqamətində də fəaliyyətini uğurla davam etdirir.



Xatırladaq ki, QSC 2017-ci ildə "Çovdar" yatağında istismar işlərinə başlayarkən mədənin oksidləşmiş filizlərinin iqtisadi cəhətdən səmərəli qızıl həcmi 212 min unsiya miqdarında təsdiqlənmiş, hasilat işlərinin 2020-ci ildə yekunlaşacağı hesablanmışdır. "AzerGold" QSC tərəfindən ötən dövr ərzində beynəlxalq məsləhətçi şirkətlər cəlb edilərək müasir texnoloji yeniliklərin tətbiqi ilə aparılmış planlı geoloji kəşfiyyat və buruqqazma işləri nəticəsində sözügedən yatağın üst qatlarında yerləşən oksidləşmiş filiz həcmlərinin artırılması, üstəlik yerin daha dərin qatlarındakı tranzit və sulfid filizlərinin emalı satıla biləcək qızıl ehtiyatlarını artırmağa imkan yaratmışdır.

Bundan əlavə, "Çovdar" mədəninin yaxınlığında yerləşən və müstəqil şəkildə iqtisadi səmərəsizlik riski daşıyan nisbətən kiçik, cinah yataqların ardıcıl istismara cəlb edilməsi "Çovdar" mədəninin bazasında yaradılmış Çovdar İnteqrədilmiş Regional Emal Sahəsinin (ÇİRES) ümumi ehtiyatlarını artırmışdır. Beləliklə, sahənin istismar müddəti 2020-ci ildən 2028-ci ilədək uzadılmaqla fəaliyyət dövrü 8 il, ümumi ehtiyatları isə ilkin hesablanan 212 min unsiyaya əlavə olaraq, 519,9 min unsiya artırılaraq 731,9 min unsiyaya çatdırılmışdır. Hazırda müvafiq kəşfiyyat və tədqiqat işlərinin davam etdirildiyi nəzərə alınaraq sözügedən həcmlərin daha da artırılması istisna olunmur.

Sadalanan göstəricilərə nail olunması üçün ÇİRES-də mövcud qırıcı və konveyer xəttinin optimizasiyası nəticəsində keçirmə qabiliyyəti təkmilləşdirilmiş, xətlərin mövcud istehsal imkanları 50 faizədək artırılmışdır. Hazırda topaaşındırma üsulu ilə işləyən emal zavodu ilə yanaşı, tranzit və sulfid filizlərinin emalı üçün çən aşındırma (CİL) üsulu ilə fəaliyyət göstərəcək yeni emal zavodunun tikintisi də sürətlə davam etdirilir. Tikinti layihəsinin idarəedilməsi və keyfiyyətə nəzarət məqsədilə Cənubi Koreyanın "Heerim Architects & Planners Co" məsləhətçi şirkəti, zavodun və müvafiq infrastrukturun qurulması üzrə isə "Maqro Construction" beynəlxalq tikinti şirkəti tərəfindən müvafiq işlər görülür.

Sözügedən təkmilləşdirmə işləri çərçivəsində cari ilin birinci rübündə 10592 unsiya qızıl istehsal edilmişdir. Bu göstəricinin ötən ilin müvafiq dövrü ilə müqayisədə nisbətən az olmasına baxmayaraq, dayanıqlı hasilatın təmin edilməsi məqsədilə aparılmış optimizasiya işləri hasilatı həm cari, həm də ötən ilin illik planından daha artıq icrasına, sözügedən sahənin fəaliyyət dövrünün 8 il artırılması isə bölgədə davamlı məşğulluğun təmin edilməsinə və yeni iş yerlərinin açılmasına səbəb olacaqdır.

---

# İlin ilk üç ayında 1 ton 880 kiloqramdan çox narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb

Bu ilin yanvar-mart ayları ərzində hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 2795 cinayət faktı aşkarlanıb.

Onlardan 1010-u narkotik vasitələrin qanunsuz satışı, 1748-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 16-sı qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiyası, 21-i isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Bu barədə AZƏRTAC-a Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupundan məlumat verilib.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 1 ton 880 kiloqram 475,692 qram narkotik vasitə və psixotrop maddənin 1 ton 81 kiloqram 614,282 qramını heroin, 505 kiloqram 478,298 qramını marixuana, 141 kiloqram 94,393 qramını tiryək, 5 kiloqram 39,161 qramını həşiş, 198,940 qramını kokain, 142 kiloqram 797,821 qramını psixotrop maddələr, 4 kiloqram 252,797 qramını isə digər narkotik vasitələr təşkil edib. Həmçinin göstərilən dövrdə 7286 ədəd metadon və 2524 ədəd çətənə bitkisi qanunsuz dövriyyədən götürülüb.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 1732 nəfər cəlb olunub. Cinayət məsuliyyətinə cəlb



edilmiş şəxslərdən 32 nəfəri xarici ölkə vətəndaşıdır. Onların 15-i İran İslam Respublikası, 8-i Rusiya Federasiyası, 5-i Türkiyə, 3-ü Gürcüstan, 1-i Ukrayna vətəndaşı olub. Xarici ölkə vətəndaşlarından ümumilikdə 576 kiloqram 277,504 qram müxtəlif növ narkotik vasitə, 17 kiloqram 956,92 qram psixotrop maddələr və 1,125 qram güclü təsir edən maddə götürülüb.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 55 fakt aşkarlanıb və həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 765 kiloqram 540,334 qram, 7286 ədəd həb müxtəlif növ narkotik vasitələr, 22 kiloqram 399,27 qram psixotrop maddələr və 108 həb, 2048 ədəd kapsul güclü təsir edən maddə çıxarılıb.

2022-ci ilin üç ayında qanunsuz dövriyyədən götürülmüş 1 ton 880 kiloqram 474,692 qram narkotik vasitə və psixotrop maddənin təxmini dəyəri 69 milyon 778 min manat (41 milyon ABŞ dolları) kimi qiymətləndirilir.

Bu ilin yanvar-mart aylarında Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 18526 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 817 nəfərdən 612-sinin istifadəçi olması müəyyən olunub və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

Cari ilin yanvar-mart aylarında 802 - qaynar xətt telefon zəng xidmətinə 498 vətəndaş müraciəti daxil olub. Onların 59-u narkotik vasitələrin qanunsuz dövriyyəsi, 190-nı narkotik asılılığın müalicə, 249-u isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izahı, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd edilən müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 252 məktub ünvanlanıb. Beləliklə, 802 - qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumat əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılığından əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.

---


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


---

## ALLAH RƏHMƏT ELƏSİN!

Sumqayıtdan Zakir Fərəcov Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

**İLQAR FƏTİ-ZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Şirvan Apellyasiya Məhkəməsinin kollektivi məhkəmənin hakimi Zaur Allahyarova atası

**MİRZAĞA ALLAHYAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərova qardaşı

**ƏLİ ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin Ümumiqtisad fakültəsinin 1984-cü il buraxılış, 932-ci qrupun məzunları qrup yoldaşları Yasin Əmənova əzizi

**MİRZAĞA MİRZALI OĞLU ALLAHYAROVUN**

Saatlı rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5737
Sifariş 1076
Qiyməti 40 qəpik